# "CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

# "CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Maliyyə hesabatları üzrə qeydlər | 8-50 |

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "CASPIAN FINANCE Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyatların nəticələri, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarının ("MHBS Mühasibat Uçotu Standartları") 1 saylı MHBS-yə uyğun olaraq necə tətbiq olunduğunu əks etdirən və maliyyə hesabatlarının 3 saylı Qeydində təqdim olunan "Təqdimatın əsasları"na uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 19 fevral 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən dərc olunması üçün təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Samir İsgəndərov**<br>**Direktor** | **Şamil Məmmədov**<br>**Baş mühasib** |
| 19 fevral 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası | 19 fevral 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası |

«CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI» Məhdud Məsuliyyətli Cəmiyyəti

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"CASPIAN FINANCE Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə:

***Rəy***

Biz "CASPIAN FINANCE Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan, pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinə dair məlumatlar daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarının ("MHBS Mühasibat Uçotu Standartları") 1 saylı MHBS-yə uyğun olaraq necə tətbiq olunduğunu əks etdirən və maliyyə hesabatlarının 3 saylı Qeydində təqdim olunan "Təqdimatın əsasları"na uyğun olaraq düzgün şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının, bu maliyyə hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarının ("MHBS Mühasibat Uçotu Standartları") 1 saylı MHBS-yə uyğun olaraq necə tətbiq olunduğunu əks etdirən 3 saylı Qeydinin "Təqdimatın əsasları" bəndinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları tərtib edildikdə, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativi olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz, həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq, sözləşmə, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

## "CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il | 1 yanvar 2023-cü il |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 160,999 | 4,730,736 | 300,000 |
| Müştərilərə verilmiş kreditlər | 10 | 8,841,682 | 54,884 | - |
| Əmlak və avadanlıqlar | 11 | 205,009 | 82,628 | - |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər üzrə avans ödənişləri | 12 | 42,623 | 8,996 | - |
| Təxirə salınmış vergi aktivi | 13 | 8,766 | 33,296 | - |
| Digər aktivlər | | 12,138 | 1,874 | - |
| **CƏMİ AKTİVLƏR** | | **9,271,217** | **4,912,414** | **300,000** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Borc alınmış vəsaitlər | 14 | 3,432,837 | - | - |
| İcarə öhdəliyi | 15 | 121,091 | - | - |
| Əlaqəli tərəfə ödəniləcək vəsaitlər | 16 | 28,500 | 28,500 | - |
| Digər öhdəliklər | 17 | 444,748 | 17,099 | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4,027,176** | **45,599** | **-** |
| **KAPİTAL** | | | | |
| Nizamnamə kapitalı | 18 | 5,000,000 | 5,000,000 | 300,000 |
| Bölüşdürülməmiş mənfəət/(Yığılmış zərərlər) | | 244,041 | (133,185) | - |
| **CƏMİ KAPİTAL** | | **5,244,041** | **4,866,815** | **300,000** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **9,271,217** | **4,912,414** | **300,000** |

**Rəhbərliyin adından:**

**Samir İsgəndərov**
**Direktor**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

«CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI» Məhdud Məsuliyyətli Cəmiyyəti

**Şamil Məmmədov**
**Baş mühasib**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

8-50-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## “CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 19 | 1,728,824 | 270 |
| Faiz xərci | 19 | (106,387) | - |
| **Xalis faiz gəliri** | | **1,622,437** | **270** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərəri xərci | 10 | (18,550) | (816) |
| Ümumi və inzibati xərclər | 20 | (1,170,321) | (165,935) |
| Digər gəlirlər | | 38,645 | - |
| **Mənfəət vergisindən əvvəl mənfəət/(zərər)** | | **472,211** | **(166,481)** |
| Mənfəət vergisi (xərci)/gəliri | 13 | (94,985) | 33,296 |
| **İl üzrə xalis mənfəət/(zərər)** | | **377,226** | **(133,185)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)** | | **377,226** | **(133,185)** |

**Rəhbərliyin adından:**

**Samir İsgəndərov**
**Direktor**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Məmmədov**
**Baş mühasib**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

«CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI» Məhdud Məsuliyyətli Cəmiyyəti

8-50-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**“CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərərlər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **300,000** | **-** | **300,000** |
| Nizamnamə kapitalında artım | 4,700,000 | - | 4,700,000 |
| İl üzrə cəmi məcmu zərər | - | (133,185) | (133,185) |
| **31 dekabr 2023-cü il** | **5,000,000** | **(133,185)** | **4,866,815** |
| İl üzrə cəmi məcmu gəlir | - | 377,226 | 377,226 |
| **31 dekabr 2024-cü il** | **5,000,000** | **244,041** | **5,244,041** |

**Rəhbərliyin adından:**

**Samir İsgəndərov**
**Direktor**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Məmmədov**
**Baş mühasib**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

«CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI» Məhdud Məsuliyyətli Cəmiyyəti

8-50-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | | 472,211 | (166,481) |
| Mənfəət vergisindən əvvəlki mənfəətin/(zərərin) xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərəri xərci | 10 | 18,550 | 816 |
| Köhnəlmə xərcləri | 11 | 82,121 | 1,281 |
| Faiz xərci | 19 | 106,387 | - |
| Hesablanmış faiz gəlirlərində dəyişiklik | | (61,284) | (270) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətləri üzrə pul vəsaitlərinin hərəkəti:** | | **617,985** | **(164,654)** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər: | | | |
| Müştərilərə verilən kreditlərdə dəyişikliklər | | (8,744,064) | (55,430) |
| Digər aktivlərdə dəyişikliklər | | (10,264) | (1,874) |
| Digər öhdəliklərdə dəyişikliklər | | 357,194 | 17,099 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(7,779,149)** | **(204,859)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak və avadanlıqların satın alınması | | (68,019) | (92,905) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(68,019)** | **(92,905)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 14 | 4,986,995 | - |
| Borc alınmış vəsaitlərin geri qaytarılması | 14 | (1,588,911) | - |
| İcarə öhdəliyinin əsas hissəsinin geri qaytarılması | | (49,019) | - |
| Ödənilmiş faiz | | (71,634) | - |
| Səhmdarlar tərəfindən ianələr üzrə daxilolmalar | | - | 4,700,000 |
| Əlaqəli tərəfdən alınmış borc vəsaitləri üzrə daxilolmalar | | - | 28,500 |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə xalis pul vəsaitləri** | | **3,277,431** | **4,728,500** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ÜZRƏ XALİS (AZALMA)/ARTMA | | (4,569,737) | 4,430,736 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** ***ilin əvvəlinə*** | 9 | **4,730,736** | **300,000** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** ***ilin sonuna*** | 9 | **160,999** | **4,730,736** |

**Rəhbərliyin adından:**

**Samir İsgəndərov**
**Direktor**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Məmmədov**
**Baş mühasib**

19 fevral 2025-ci il
Bakı, Azərbaycan Respublikası

«CASPIAN FINANCE BANK OLMAYAN KREDİT TƏŞKİLATI» Məhdud Məsuliyyətli Cəmiyyəti

8-50-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"CASPIAN FINANCE Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti 29 noyabr 2022-ci il tarixində 1308064481 (VÖEN) qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında mikro, kiçik və orta biznes nümayəndələrinə və fiziki şəxslərə kreditlərin verilməsi də daxil olmaqla maliyyə xidmətləri göstərməkdən ibarətdir. Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və biznes funksiyaları bank olmayan kredit təşkilatının ARMB tərəfindən məhdud bank əməliyyatları üçün verilmiş "BKT-46" nömrəli lisenziya əsasında həyata keçirilir.

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin təsdiq olunmuş, buraxılmış və nominal dəyəri 1,000 AZN olan tam ödənilmiş 5,000 ədəd adi səhmləri olmuşdur (1 yanvar 2023-cü il tarixinə Cəmiyyətin təsdiq olunmuş, buraxılmış və nominal dəyəri 1,000 olan 300 ədəd adi səhmləri olmuşdur). Cəmiyyətin nəzarətedici tərəfi Bənövşə Məmmədovadır.

Cəmiyyətin hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1065, Yasamal rayonu B. Bağırova küçəsi 15 ünvanıdır.

31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il, % | 31 dekabr 2023-cü il, % | 1 yanvar 2023-cü il, % |
|---|---|---|---|
| Bənövşə Məmmədova | 90 | 90 | 95 |
| Məntiq Şahbazov | 5 | 5 | 5 |
| Ziyafət İsgəndərova | 5 | 5 | - |
| **Cəmi** | **100** | **100** | **100** |

## 2. CƏMİYYƏTİN ƏMƏLİYYAT MÜHİTİ

Cəmiyyətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini özündə əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Qlobal təchizat zəncirinin pozulması, Rusiya Federasiyası və Ukrayna arasındakı münaqişə, eləcə də əmtəə malları üzrə artan istehlak tələbi əmtəə mallarının artan qiymətləri də daxil olmaqla 2022-ci ildə qlobal iqtisadiyyata əhəmiyyətli inflyasiya təzyiqlərinin yaranması ilə nəticələnmişdir. Rusiyadan ixrac olunan xam neftin Avropa İttifaqından kənar bazarlara çıxarılması və qlobal xam neft tələblərinə dair gözləntilərin aşağı düşməsi səbəbindən qlobal bazarlar yeni ticarət dinamikasına uyğunlaşmışdır.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur, bu səbəbdən hökumət son 8 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticə etibarilə, qlobal neft qiymətlərində baş verən davamlı dəyişikliklər yerli valyutaya təsir göstərməmiş və bu səbəbdən, bu biznes mühitində qeyri-müəyyənliklərin artmasına səbəb olmamışdır.

2024-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycan iqtisadiyyatı ötən ilin eyni dövrü ilə müqayisədə 1.1% artım nümayiş etdirərək, ümumilikdə 4.1% genişlənmişdir. Qeyri-neft və qaz sektoru 6.2% artdığı halda, neft və qaz sektorunda 0.3%-lik artım müşahidə olunmuşdur.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2023-cü il ilə müqayisədə 4.1% artaraq, 2024-cü ildə 126.3 milyard AZN-ə (74.3 milyard ABŞ dollarına) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2024-cü il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 47.6 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 26.6 milyard ABŞ dolları ixrac olunan məhsulların, 21.1 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BBB-" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service" ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Cəmiyyətin əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Cəmiyyətin maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdırmaq iqtidarında deyil.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

### Təqdimatın əsasları

### MHBS Mühasibat Uçotu Standartlarının ilk dəfə tətbiq edilməsi

Cəmiyyətin MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmış maliyyə hesabatları 1 yanvar 2023-cü il tarixinə dərc edilmiş və qəbul edilmişdir.

MHBS Mühasibat Uçotu Standartlarının ilk dəfə tətbiq edilmə qaydaları "Maliyyə Hesabatlarının Beynəlxalq Standarlarının ilk dəfə tətbiq edilməsi" adlı 1 saylı MHBS-də təsbit olunmuşdur. 1 saylı MHBS-yə əsasən müəssisə, maliyyə hesabatlarının ilk tam dəstini hazırlayarkən hesabat tarixinə qüvvədə olan hər bir MHBS Mühasibat Uçotu Standartına riayət etməlidir. Ümumi prinsip olaraq, 1 saylı MHBS hesabat tarixində qüvvədə olan standartları retrospektiv olaraq tətbiq etməyi tələb edir.

Lakin bəzi sahələrdə, xüsusilə də müəyyən əməliyyatların nəticəsi təyin edildikdən sonra retrospektiv tətbiqin rəhbərliyin qərar qəbul etməsini tələb etdiyi hallarda, retrospektiv tətbiq qadağan edilir. Bundan əlavə, MHBS Mühasibat Uçotu Standartlarının tam retrospektiv tətbiqi ilə bağlı bir sıra məhdud güzəştlər, uyğunluq dəyəri maliyyə hesabatının istifadəçilərinə verilən faydalardan artıq olduğu halda verilir. Güzəştlər aşağıdakılara bölünür:

- Məcburi güzəştlər;
- Məcburi olmayan güzəştlər.

Cəmiyyət bütün məcburi güzəştləri tətbiq etmişdir.

**Təqdimat valyutası**

Hazırkı maliyyə hesabatları Azərbaycan manatı ("AZN) ilə təqdim olunmuşdur. Azərbaycan manatı Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

**Əsas qiymətləndirmə şərtləri**

**Fasiləsizlik prinsipi**

Maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə ləğv olunmasına, fəaliyyətinin dayandırılmasına və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərlik tərəfindən fasiləsizlik fərziyyəsinin qiymətləndirilməsi mahiyyət etibarilə qeyri-müəyyən olan hadisələrin və ya şərtlərin gələcək nəticələri haqqında müəyyən bir zamanda mühakimə yürütməyi əhatə edir.

**Maliyyə alətləri**

Cəmiyyət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və maliyyə öhdəliyini maliyyə vəziyyəti haqqında hesabatda tanıyır. Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. İlkin tanınma zamanı, maliyyə aktivləri və öhdəliklərinin satın alınması və ya buraxılması ilə bağlı bütün birbaşa əməliyyat xərcləri (mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə aktiv və öhdəlikləri istisna olmaqla) müvafiq olaraq maliyyə aktivinin ədalətli dəyərinə əlavə edilir və ya maliyyə öhdəliyinin ədalətli dəyərindən çıxılır.

Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə aktiv və öhdəliklərinin satın alınması ilə bağlı birbaşa əməliyyat xərcləri dərhal mənfəət və ya zərər hesablarında tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması alqı-satqı tarixi əsasında tanınır və ya tanınmasına xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- Maliyyə aktivi müqavilə üzrə pul vəsaitləri axınını toplamaq üçün maliyyə aktivlərini saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas məbləğ və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- Maliyyə aktivi müqavilə üzrə pul vəsaitləri axınının toplanması və maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas məbləğ və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılandıqda, Cəmiyyət kapital investisiyasının ədalətli dəyərindəki sonrakı dəyişikliklərin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD-də təyin edə bilər.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət aktivin portfel səviyyəsində saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün şəkildə əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi. Xüsusilə rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin necə qiymətləndirilməsi və Cəmiyyətin rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış müqavilə üzrə pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, Cəmiyyətin maliyyə aktivlərinin idarə olunması üzrə məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alır. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edir. Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Bankın iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər (məs. reqressiz aktivlər); və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə aktivlərinin yenidən təsnifatı**

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etməsi üzrə biznes modelini dəyişməsindən sonrakı dövr istisna olmaqla, ilkin tanınmadan sonra yenidən təsnif edilmir. Yenidən təsnifləşdirmə perspektiv təsirə malikdir.

**Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu**

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya uyğun olduğu halda daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və digər mükafatlar və ya endirimlər) ilkin tanınma anında ümumi balans dəyərinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər ehtiyatına düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsi metodunu tətbiq etməklə hesablanır. Sonradan kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsi metodunu maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır.

Əgər sonrakı hesabat dövrlərində kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit üzrə dəyərsizləşməyə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsi metodunu maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Cəmiyyət MZVƏD ilə qiymətləndirilməyən aşağıdakı maliyyə alətləri üzrə ehtimal olunan kredit zərərləri (EOKZ) üçün zərər ehtiyatlarını tanıyır:

- borc alətləri olan maliyyə aktivləri;
- buraxılmış kredit öhdəlikləri.

12 aylıq EOKZ hesabat tarixindən sonra 12 ay ərzində maliyyə alətinin defolt hadisəsindən yaranan ümumi EOKZ-də payıdır. 12 aylıq EOKZ kimi tanınan maliyyə alətləri "1-ci Mərhələ" maliyyə alətləri adlandırılır.

Ömürlük EOKZ maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün bütün defolt hadisələrindən yaranan EOKZ-dir. Ömürlük EOKZ kimi tanınan maliyyə alətləri ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artıqda, lakin maliyyə alətləri kredit üzrə dəyərsizləşmədikdə "2-ci Mərhələ" maliyyə alətləri, maliyyə alətləri kredit üzrə dəyərsizləşdikdə isə "3-cü Mərhələ" maliyyə alətləri adlandırılır.

**EOKZ-nin ölçülməsi**

EOKZ kredit zərərlərinin ehtimal əsasında ölçülən qiymətləndirilməsidir. O, aşağıdakı şəkildə ölçülür:

- hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün gözlənilən əldə edilməmiş pul vəsaitlərinin cari dəyəri (yəni müqavilə əsasında müəssisəyə ödənilməli pul axınları ilə Cəmiyyətin əldə etməyi gözlədiyi pul axınları arasındakı fərq);
- hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə ehtimal olunan gələcək pul axınlarının cari dəyəri arasındakı fərq.

**Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri**

Hər hesabat tarixində Cəmiyyət amortizasiya edilmiş dəyərdə hesablanmış maliyyə aktivlərinin kredit üzrə dəyərsizləşmiş olub-olmadığını qiymətləndirir. Maliyyə aktivi onun gələcək pul axınlarına mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə "kredit üzrə dəyərsizləşmiş" olur.

Maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsinin sübutlarına aşağıdakı müşahidə edilən bilən məlumatlar daxildir:

- borcalan Cəmiyyətə olan hər hansı əhəmiyyətli kredit ödənişinin vaxtını 90 gündən çox gecikdirir;
- bank hesabından istifadədə məhdudiyyətlər və ya banklarda depozit və yatırımlar üzrə gecikmiş ödənişlər 7 gündən çox çəkir;
- borcalanın mühüm maliyyə çətinliyi ilə üzləşməsi;
- Cəmiyyətin əks təqdirdə nəzərdən keçirməyəcəyi şərtlərlə kreditin restrukturizasiyası.

Borcalanın maliyyə vəziyyətinin pisləşməsinə görə şərtləri yenidən razılaşdırılmış kredit, müqavilə üzrə pul vəsaitlərinin ödənilməyəcəyi riskinin əhəmiyyətli dərəcədə azaldığı və dəyərsizləşmənin başqa əlamətlərinin olmadığı hallar istisna olmaqla, kredit üzrə dəyərsizləşmiş sayılır. Əlavə olaraq, ödənişi 90 gündən çox gecikdirilmiş pərakəndə kredit, kredit üzrə dəyərsizləşmiş sayılır.

**Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

Amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri üçün EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aktivlərin ümumi balans dəyərindən çıxılma kimi təqdim olunur.

**Borcların silinməsi**

Müştərilərə verilmiş kreditlər maliyyə aktivini tam və ya qismən bərpa etmək üçün əsaslı gözlənti olmadığı təqdirdə silinir. Bu, adətən, Cəmiyyət borcalanın silinməsi nəzərdə tutulan məbləği ödəmək üçün kifayət qədər pul vəsaiti yaradacaq aktivləri və ya gəlir mənbəyinin olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə fərdi aktiv səviyyəsində həyata keçirilir.

Əvvəl silinmiş borcların bərpası mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda "ehtimal olunan kredit zərərləri"nə daxil edilir.

Silinmiş maliyyə aktivləri ödənilməli məbləğlərin bərpası üzrə Cəmiyyət prosedurlarına əməl etmək məqsədilə hüquqi tədbirlərin predmeti olaraq qalır.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyərinin ölçülməsində bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən istifadə etdikləri mülahizələrdən istifadə edilir.

Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya onu, aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanan başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri maliyyə hesabatında ölçülən və ya açıqlanan bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə kotirovka olunmuş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxilolmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

**Borc və ya kapital aləti olaraq təsnifləşdirmə**

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

**Kapital alətləri**

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satın alması, birbaşa kapitalda tanınır və birbaşa kapitaldan çıxılır. Cəmiyyətin öz kapital alətlərini satın alması, satması, buraxması və ya ləğv etməsi ilə bağlı mənfəət və ya zərərdə heç bir gəlir və zərər tanınmır.

**Maliyyə** öhdəlikləri

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə və ya MZVƏD ilə ölçülür.

Maliyyə öhdəlikləri (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutulduğu halda MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz dərəcəsi metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi maliyyə öhdəliyinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində ehtimal olunan gələcək nağd pul ödənişlərini (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar və xallar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini (və ya maliyyə öhdəliyinin bir hissəsini) maliyyə vəziyyəti haqqında ilkin hesabatlardan yalnız və yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əhəmiyyətli dərəcədə fərqli şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız və yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri, banklarda yerləşdirilmiş depozit hesablar və ödəmə müddəti üç ay və ya daha az olan digər qısamüddətli yüksək likvidliyə malik investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya dəyərində uçota alınır, çünki: (i) onlar müqavilə üzrə pul vəsaitlərinin toplanması məqsədilə saxlanılır və həmin pul vəsaitləri YƏMFÖ-nü təmsil edir və (ii) onlar MZVƏD-də uçota alınmır.

**Müştərilərə verilmiş kreditlər**

İlin sonuna olan maliyyə vəziyyəti haqqında hesabatda "Müştərilərə verilmiş kreditlər" bəndinə müştərilərə verilmiş amortizasiya edilmiş dəyərdə qiymətləndirilən kreditlər daxildir; onlar ilk olaraq məxsusi birbaşa əməliyyat xərcləri əlavə edilməklə ədalətli dəyərdə, daha sonra effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və hər hansı tanınmış dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla tarixi dəyər ilə tanınır.

Amortizasiya əmlak və avadanlığın tarixi dəyəri üzrə hesablanır və aktivlərin faydalı istifadə müddəti əsasında silinməsi üçün nəzərdə tutulur. Ehtimal edilən faydalı istifadə müddəti, qalıq dəyərləri və amortizasiya metodu hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və hər hansı dəyişikliyin aşağıda qeyd olunan müddət üzrə təsiri illik müəyyən edilmiş dərəcələrlə perpektiv əsasda hesablanır:

| | |
|---|---|
| İstifadə hüququ olan aktivlər | İcarə müddətindən asılıdır |
| Kompüter və digər avadanlıqlar | 20-25% |
| Mebel və qurğular | 20% |

Amortizasiya aktivlərin faydalı istifadə müddəti ərzində düz xətt metodu əsasında hesablanır.

Təmir və ya yenilənmələr ilə bağlı xərclər, kapitallaşma üzrə nəzərdə tutulmadığı təqdirdə, yarandıqda hesablanır və əməliyyat xərclərinə daxil edilir.

**Avans ödənişləri**

Avans ödənişləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə qeydə alınır. Avans ödənişi ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə edilməsi gözlənildikdə və ya avans ödənişi özü ilkin tanınma zamanı uzunmüddətli kimi təsnif ediləcək aktivə aid olduqda, avans ödənişi uzunmüddətli kimi təsnif edilir.

Aktivlərin əldə edilməsi üçün avans ödənişləri Cəmiyyət aktiv üzərində nəzarəti əldə etdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlərlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal edilir. Digər avans ödənişləri avans ödənişlərə aid mal və ya xidmətlər alındıqda mənfəət və zərər hesablarına silinir. Avans ödənişlə bağlı aktivlərin, malların və ya xidmətlərin alınmayacağına dair əlamət varsa, avans ödənişin balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri mənfəət və ya zərər hesablarında tanınır.

**Cari vergi**

Cari vergi hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir haqqında hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari vergi üzrə öhdəliyi, hesabat dövründə qüvvədə olan və ya mahiyyət etibarilə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman öhdəlik üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin qudvildən və ya mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (müəssisələrin birləşməsi istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır. Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa digər məcmu gəlir haqqında hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Balans hesabatında aktiv və ya öhdəliyin balans dəyəri həmin aktiv və ya öhdəliyin vergi bazasından fərqli olması səbəbindən yaranan bütün müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi qanunvericiliyi üçün ehtiyat təmin olunur. Həmin ehtiyat öhdəliklərin yerinə yetirilməsi proqnozlaşdırılan dövr üzrə tətbiq olunması gözlənilən vergi dərəcəsi əsasında hesablanır və balans hesabatı tarixinə qüvvədə olan dərəcələrə (və qanunlara) əsaslanır. Təxirə salınmış vergi qanunvericiliyi üzrə dəyişikliklər gəlir haqqında hesabatda qeydə alınır.

**Borc alınmış vəsaitlər**

Bütün kreditlər və borc alınmış vəsaitlər ilkin olaraq birbaşa aid edilə bilən əməliyyat xərcləri çıxılmaqla alınan məbləğin ədalətli dəyəri ilə tanınır. İlkin tanınmadan sonra faiz yaradan kreditlər və borc alınmış vəsaitlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür. Gəlir və zərərlər öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi zamanı məcmu gəlir haqqında hesabatda tanınır.

**İcarələr**

İcarə, ödəniş müqabilində nəzərdən keçirildiyi müddət ərzində aktivdən (əsas aktivdən) istifadə etmək hüququ üzrə müqavilə və ya müqavilənin bir hissəsidir. Müştərinin naməlum aktivin istifadəsindən bütün iqtisadi səmərələri əldə etmək hüququ və həmin aktivin istifadəsinə nəzarət etmək hüququ olduqda nəzarət mövcud sayılır.

İcarə öhdəliyi başladıqda, Cəmiyyət qısamüddətli, eləcə də aşağı dəyərli icarə öhdəliyindən başqa bütün icarələr üçün istifadə hüququ olan aktivlər və icarə öhdəliyini tanıyır.

İstifadə hüququ olan aktivlər əvvəlcə maya dəyəri ilə ölçülür və sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür.

İcarə öhdəliyi əvvəlcə gələcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülür. Sonradan icarə öhdəlikləri faiz və icarə ödənişlərinə uyğunlaşdırılır.

**Digər öhdəliklər**

Digər öhdəliklər kontragent müqavilə əsasında öz öhdəliklərini həyata keçirdikdə toplanır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə qeydə alınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarı tərəfindən qoyulmuş kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarların razılığı ilə artıra və ya azalda bilər.

Nizamnamə kapitalından başqa səhmdarlar tərəfindən vəsaitin qoyulması və ya çıxarılması digər kapitalda tanınır.

Adi səhmlər üzrə dividendlər elan olunduqları dövrdə azalma kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilmiş dividendlər 10 saylı "Hesabat tarixindən sonrakı hadisələr" adlı BMUS əsasında nəzərə alınır və müvafiq şəkildə açıqlanır.

**Faiz gəliri və xərcinin hesablanması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınması zamanı hesablanır. Faiz gəlirləri və ya xərclərinin hesablanması zamanı effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmədikdə) ümumi balans dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir. Effektiv faiz dərəcəsi faizin bazar dərəcələrində yerdəyişmələri əks etdirməsi üçün dəyişən dərəcəli alətlərin pul hərəkətinin dövri olaraq təkrar qiymətləndirilməsinin nəticəsi olaraq yenilənir.

Effektiv faiz dərəcəsi, hedc düzəlişlərinin amortizasiyası başlandığı tarixdə ədalətli dəyər üzrə hedc düzəlişlərində dəyişikliklərlə bağlı yenidən təhlil olunur.

Lakin ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəlirləri isə effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktiv artıq kredit üzrə dəyərsizləşmiş olmadıqda faiz gəlirlərinin hesablanması yenə də ümumi qalıq dəyəri üzərindən hesablanır.

**Təqdimat**

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan effektiv faiz üsulu ilə hesablanan faiz gəlirlərinə amortizasiya edilmiş dəyərdə hesablanan maliyyə aktivləri üzrə faizlər daxildir.

**Digər gəlir və xərclərin tanınması**

Digər gəlir və xərclər hesablama əsasında tanınır.

**İşçilərə sərf olunan xərclər**

Əməkhaqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna və sosial sığorta fondlarına ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (səhiyyə, bağça xidmətləri və qidalanma ilə bağlı xərclər) Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək maliyyə hesabatlarının qeydlərində açıqlanır.

Şərti aktivlər maliyyə hesabatlarında qeyd olunmur, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatlarında açıqlanır.

## 4. UÇOT SİYASƏTLƏRİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyət növbəti maliyyə ili ərzində maliyyə hesabatları və aktiv və öhdəliklərin balans dəyərində tanınan məbləğə təsir edən təxminlər və fərziyyələr irəli sürür. Təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və müəyyən şərtlər əsasında ağlabatan olması ehtimal edilən gələcək hadisələr üzrə ehtimallar daxil olmaqla, rəhbərliyin təcrübəsi və digər faktorlara əsaslanır. Təxminlərdən əlavə rəhbərlik, həmçinin, mühasibat uçotu siyasətlərinin tətbiqi prosesində müəyyən mühakimələr irəli sürür. Növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərində mühüm dəyişikliyə səbəb olan maliyyə hesabatları və qiymətləndirmələrində tanınan məbləğ üzərində ciddi təsirə malik mühakimələrə aşağıdakılar daxildir:

**Maliyyə alətlərinin ədalətli dəyərinin qiymətləndirilməsi**

Cəmiyyətin bir sıra uçot siyasətləri və açıqlamaları maliyyə və qeyri-maliyyə aktiv və öhdəliklərinin ədalətli dəyərlərinin qiymətləndirilməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin qiymətləndirilməsi ilə bağlı nəzarət mexanizmi təsis etmişdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini qiymətləndirərkən, Cəmiyyət mümkün olduğu qədər bazarda müşahidə oluna bilən məlumatlardan istifadə edir. Ədalətli dəyər, qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanan ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində aşağıdakı kimi təsnifləşdirilmişdir.

- *1*-ci səviyyə: fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə kotirovka qiymətləri (nizamlanmamış);
- *2*-ci səviyyə: 1-ci səviyyəyə daxil edilmiş kotirovka qiymətlərindən başqa, aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər kimi) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilən) müşahidə edilə bilən daxilolmalar;
- *3*-cü səviyyə: müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün daxilolmalar (müşahidə olunmayan daxilolmalar).

Əgər aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, o zaman ədalətli dəyərin ölçülməsi bütövlükdə ədalətli dəyər iyerarxiyasının eyni səviyyəsində bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli daxilolma kimi təsnif edilir.

**EOKZ üzrə ehtiyatın ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiyanın, modellərin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirən mühüm bir təxmindir. EOKZ-nin ölçülməsi üzrə metodologiya 22 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri üzrə ehtiyata əhəmiyyətli təsiri vardır: defolt anlayışı, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenari modelləri.

Cəmiyyət müntəzəm olaraq, ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ-nin ölçülməsi üzrə ətraflı məlumatlar 22 saylı Qeyddə açıqlanır.

Cəmiyyət 31 dekabr 2024-cü il tarixinə 19,366 AZN məbləğində ehtimal olunan kredit zərəri üzrə ehtiyat tanımışdır (31 dekabr 2023-cü il: 816 AZN).

**Kredit riski üzrə əhəmiyyətli artım ("KRƏA")**

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Cəmiyyət, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilkin tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmaq üçün deyil, kredit riskinin nisbi artımını təyin etmək məqsədilə nəzərdən keçirilir. Cəmiyyət müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcək məlumatları nəzərə alır. Cəmiyyətin rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin edir və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəklə bağlı məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə alır. 22 saylı Qeydə nəzər salın.

**Cari vergilər**

Vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və tez-tez dəyişikliklər baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunvericiliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticə etibarilə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, hesabat dövrləri hesabat ilindən əvvəlki üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

**Təxirə salınmış vergi aktivinin tanınması**

Xalis təxirə salınmış vergi aktivi gələcək vergi tutulan məbləğ vasitəsilə bərpa oluna bilən mənfəət vergilərini təmsil edir və maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Əlaqədar vergi mənfəətinin əldə edilməsi mümkün olduğu halda təxirə salınmış vergi aktivləri tanınır. Gələcək vergi tutulan mənfəətin və gələcəkdə ehtimal olunan vergi mənfəətlərinin miqdarının müəyyən olunması zamanı, rəhbərlik mülahizələr irəli sürür və müəyyən şərtlər əsasında ağlabatan olması ehtimal edilən gələcək mənfəət gözləntilərini tətbiq edir.

Rəhbərlik hesab edir ki, Cəmiyyət növbəti beş il ərzində növbəti ilə keçirilmiş vergi zərərlərini istifadə etmək üçün kifayət qədər vergi tutulan mənfəət əldə edəcək, bu səbəbdən 31 dekabr 2024-cü il tarixinə təxirə salınmış vergi aktivi 8,766 AZN məbləğində tanınmışdır (31 dekabr 2023-cü il: 33,296 AZN).

**İcarə öhdəliklərinin və istifadə hüququ olan aktivlərin qiymətləndirilməsi**

16 saylı MHBS-nin tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəlikləri haqqında mühakimə yürütməyi tələb edir. İcarəyə götürmə müddətini təyin edərkən, Cəmiyyət yenilənmə seçimlərini həyata keçirmək (və ya ləğvetmə seçimlərini həyata keçirməmək) üçün iqtisadi stimul yaradan bütün faktları və şərtləri nəzərə alır. Müqavilənin icarəyə daxil olub-olmadığını qiymətləndirmək üçün də mülahizə tələb edilir. İcarə öhdəliklərinin ölçülməsi üçün istifadə edilən müvafiq diskont dərəcəsini müəyyən etmək üçün ehtimallar tələb olunur.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNMİŞ STANDARTLAR VƏ ŞƏRHLƏRİN QƏBUL EDİLMƏSİ

Cari ildə Cəmiyyət BMUSŞ tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 1 yanvar 2023-cü ildən etibarən 31 dekabr 2024-cü il tarixinədək olan hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-i əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilələrinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir. Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** – 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** - 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı BMUS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

**Beynəlxalq vergi islahatı - İki mərhələli model qaydaları – 12 saylı BMUS-a düzəlişlər** – 2023-cü ilin may ayında Şura 12 saylı BMUS-a düzəlişlər tətbiq etmişdir, 12 saylı BMUS-a əsasən İki mərhələli mənfəət vergiləri ilə əlaqədar təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanması ilə bağlı məcburi istisnalar tətbiq olunur. Bu düzəlişlərə əsasən 12 saylı BMUS-a icbari istisnalar tətbiq olunur, belə ki, düzəlişə əsasən müəssisələr İki mərhələli gəlir vergiləri ilə əlaqədar olan təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanmasından azaddır. Düzəlişlərə əsasən 12 saylı BMUS İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən təqdim olunan İki mərhələli model qaydalarını icra edən qanunvericilik əsasında yaranan mənfəət vergilərinə şamil olunur. Açıqlanma tələbləri daha sonra qüvvəyə mindiyi halda, müəssisələr istisnanın tətbiqini açıqlamalı və ayrılıqda İki Mərhələli mənfəət vergiləri ilə əlaqədar olan cari vergi xərcləri haqqında ətraflı məlumat verməli və qüvvədə olan və gələcək dövrlər üzrə İki mərhələli mənfəət vergilərinə məruz qalma haqqında məlumatı təqdim etməlidirlər. 31 dekabr 2023-cü il tarixində və ya ondan əvvəl başa çatmış istənilən aralıq dövr istisna olmaqla, keçid müddəaları 1 yanvar 2023-cü il tarixi və ya ondan sonra başlayacaq illik hesabat dövrləri üçün tətbiq oluna bilən xüsusi açıqlama tələbləri ilə dərhal və retrospektiv qaydada tətbiq olunur.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-in tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir.

**1 saylı BMUS-a düzəlişlər: Öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsi** - 2020-ci ilin yanvar və 2022-ci ilin oktyabr aylarında BMUSŞ öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə dair tələbləri müəyyən etmək üçün 1 saylı BMUS-un 69-76-cı bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlər üzrə məlumat təqdim edir:

- Ödənişin təxirə salınması hüququ dedikdə nəzərdə tutulan müddəalar;
- Hesabat dövrünün sonunda təxirəsalma hüququ mövcud olmalıdır;
- Müəssisənin təxirəsalma hüququndan istifadə etmə ehtimalı təsnifata heç bir təsir göstərmir;
- Yalnız konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital aləti olduqda, öhdəliyin şərtləri onun təsnifatına təsir etmir.

Əlavə olaraq, kredit sazişindən yaranan öhdəlik uzunmüddətli olaraq təsnif olunduqda və müəssisənin ödənişi təxirə salmaq hüququ on iki ay ərzində gələcək müqavilələrə riayət olunmasından asılı olduqda, açıqlama tələb edilməsi üçün tələb irəli sürülür.

2023-cü ilin may ayında BMUSŞ **"Təchizatçının maliyyələşdirilməsi üzrə razılaşmalar"**ı dərc etmişdir **(7 saylı BMUS və 7 saylı MHBS-yə edilmiş düzəliş)** – Bu düzəlişlər təchizatçının maliyyə razılaşmalarının şəffaflığının artırılması və onların müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruz qalmasına təsiri barəsində açıqlamalar tələb edir. Açıqlama tələbləri, bəzi şirkətlərin təchizat üzrə maliyyə razılaşmalarının kifayət qədər nəzərə çarpmamasının səhmdarların təhlilinə maneə törətməsi üzrə səhmdarların narahatlığına BMUSŞ-nin verdiyi cavabdır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartlar və şərhlər Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 6. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standartlar, şərhlər və düzəlişlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

2023-cü ilin avqust ayında BMUSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı BMUS-a düzəliş dərc etmişdir.** Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

30 may 2024-cü il tarixində BMUSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri" və 7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"na** düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.

- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD vasitəsilə ədalətli dəyərdə ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində BMUSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində BMUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı BMUS-u əvəz edəcək; 1 saylı BMUS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında BMUSŞ tərəfindən 19 saylı **"İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun olan konsolidasiya olunmuş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidə edilmiş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya olunmuş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 7. MHBS MÜHASİBAT UÇOTU STANDARTLARININ İLK DƏFƏ TƏTBİQ EDİLMƏSİ

Cəmiyyət 1 yanvar 2023-cü il keçid tarixi olmaqla, MHBS Mühasibat Uçotu Standartlarını ilk dəfə olaraq 2023-cü il üzrə tətbiq etmişdir.

Cəmiyyətin maliyyə hesabatları əvvəl qəbul edilmiş Azərbaycan Respublikasının Ümumi Qəbul edilmiş Mühasibat Uçotu Prinsipləri ("ÜQMP") ilə üzləşdirilir.

1 yanvar 2023-cü il tarixinə MHBS Mühasibat Uçotu Standartlarına keçidlə bağlı maliyyə vəziyyəti haqqında hesabatda xətaların düzəldilməsi və ya düzəlişlər olmamışdır.

## 8. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

24 saylı BMUS-un tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayı yolla və ya hər hansı bir və ya bir neçə tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir);
(b) Assosiasiya edilmiş müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək, lakin səhmdarın törəmə və ya birgə müəssisəsi olmayan tərəflər;
(c) Cəmiyyətdə birbaşa və ya dolayı yolla səsvermə hüququ olan və Cəmiyyət üzərində əhəmiyyətli təsirə malik olan şəxslər;
(ç) Cəmiyyətin direktorları və əməkdaşları və bu şəxslərin yaxın ailə üzvləri daxil olmaqla, Cəmiyyətin fəaliyyətinin planlaşdırılması, istiqamətləndirilməsi və idarə olunması üzrə səlahiyyətə malik əsas idarə heyəti üzvləri; və

(d) Səsvermə hüququnda əhəmiyyətli payın birbaşa və ya dolayısı ilə (c) və ya (ç) bəndlərində təsvir olunan hər hansı şəxsə məxsus olduğu və ya belə şəxsin əhəmiyyətli təsir göstərə bildiyi müəssisələr. Buraya Cəmiyyətin direktorları və ya əsas səhmdarlarına məxsus müəssisələr və Cəmiyyət ilə eyni idarə heyəti üzvünə malik müəssisələr aiddir.

Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə əməkhaqqı, bonuslar və digər daha qısa müddətli müavinətlər daxil olmaqla əsas rəhbər heyətə təqdim olunan ümumi ödəniş 131,779 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il, 21,621 AZN).

Əsas rəhbər heyətə təqdim olunan ödənişlərdən əlavə 31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə əlaqəli tərəflər ilə heç bir əməliyyatlar və qalıqlar mövcud olmamışdır.

## 9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il | 1 yanvar 2023-cü il |
|---|---|---|---|
| Köçürülməkdə olan nağd vəsaitlər | 131,987 | - | - |
| Banklarda olan nağd vəsaitlər | 29,012 | 4,730,736 | 300,000 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **160,999** | **4,730,736** | **300,000** |

Köçürülməkdə olan nağd vəsaitlər ödəniş terminallarında olan vəsaitləri təmsil edir.

31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsi üzrə heç bir məhdudiyyət olmamışdır.

Pul vəsaitləri və onların ekvivalentləri 31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə Azərbaycan manatı ilə ifadə edilmişdir. 31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikasıdır.

EOKZ-nin ölçülməsi məqsədilə, pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıq 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə EOKZ cüzi miqdardadır.

## 10. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Cari kreditlər | 7,922,084 | 47,322 |
| Uzunmüddətli kreditlər | 919,598 | 7,562 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **8,841,682** | **54,884** |

| | 31 dekabr 2024-cü il | Cəmi ümumi kreditlərin faizi | 31 dekabr 2023-cü il | Cəmi ümumi kreditlərin faizi |
|---|---|---|---|---|
| İstehlakçı kreditləri | 9,070,800 | 100% | 55,700 | 100% |
| Təxirə salınmış əməliyyat xərcləri | (209,752) | | - | |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **8,861,048** | | **55,700** | **100%** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (19,366) | | (816) | |
| **Cəmi müştərilərə verilmiş kreditlər, xalis** | **8,841,682** | | **54,884** | |

31 dekabr 2024-cü il tarixinə faiz gəliri yığımları 61,554 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 270 AZN).

**Müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti**

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **Amortizasiya dəyərində müştərilərə verilmiş kreditlər** | | | | |
| Gecikməmiş | 8,506,093 | - | - | 8,506,093 |
| 1-30 gün vaxtı keçmiş | 275,869 | - | - | 275,869 |
| 31-60 gün vaxtı keçmiş | - | 46,259 | - | 46,259 |
| 61-90 gün vaxtı keçmiş | - | 11,245 | - | 11,245 |
| 91-120 gün vaxtı keçmiş | - | - | 6,917 | 6,917 |
| 121-150 gün vaxtı keçmiş | - | - | 10,776 | 10,776 |
| 151-180 gün vaxtı keçmiş | - | - | 3,032 | 3,032 |
| 181-210 gün vaxtı keçmiş | - | - | 857 | 857 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **8,781,962** | **57,504** | **21,582** | **8,861,048** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (5,704) | (6,275) | (7,387) | (19,366) |
| **Balans dəyəri** | **8,776,258** | **51,229** | **14,195** | **8,841,682** |

Aşağıdakı cədvəllər 31 dekabr 2023-cü il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyətini təqdim edir:

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **Amortizasiya dəyərində müştərilərə verilmiş kreditlər** | | | | |
| Gecikməmiş | 55,700 | - | - | 55,700 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **55,700** | **-** | **-** | **55,700** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (816) | - | - | (816) |
| **Balans dəyəri** | **54,884** | **-** | **-** | **54,884** |

Aşağıdakı cədvəllər 31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş ümumi kreditlərin ilin əvvəlinə və sonuna olan qalıqlarının üzləşdirilməsinin xülasəsini təqdim edir:

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **Amortizasiya dəyərində müştərilərə verilmiş kreditlər** | | | | |
| **1 yanvar 2024-cü il tarixinə** | **55,700** | **-** | **-** | **55,700** |
| Tanınmış yeni aktiv | 8,805,348 | - | - | 8,805,348 |
| 2-ci mərhələyə köçürülmə | (57,504) | 57,504 | - | - |
| 3-cü mərhələyə köçürülmə | (21,582) | - | 21,582 | - |
| **31 dekabr 2024-cü il tarixinə** | **8,781,962** | **57,504** | **21,582** | **8,861,048** |

Aşağıdakı cədvəllər 31 dekabr 2023-cü il tarixinə müştərilərə verilmiş ümumi kreditlərin ilin əvvəlinə və sonuna olan qalıqlarının üzləşdirilməsinin xülasəsini təqdim edir:

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **Amortizasiya dəyərində müştərilərə verilmiş kreditlər** | | | | |
| **1 yanvar 2023-cü il tarixinə** | **-** | **-** | **-** | **-** |
| Tanınmış yeni aktiv | 55,700 | - | - | 55,700 |
| **31 dekabr 2023-cü il** | **55,700** | **-** | **-** | **55,700** |

Aşağıdakı cədvəllər 31 dekabr 2024-cü il tarixinə ehtimal olunan kredit zərəri üzrə ehtiyat ilə bağlı məlumat təqdim edir:

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **1 yanvar 2024-cü il** | **(816)** | **-** | **-** | **(816)** |
| Tanınmış yeni aktiv | (4,888) | - | - | (4,888) |
| 2-ci mərhələyə köçürülmə | - | (6,275) | - | (6,275) |
| 3-cü mərhələyə köçürülmə | - | - | (7,387) | (7,387) |
| **31 dekabr 2024-cü il** | **(5,704)** | **(6,275)** | **(7,387)** | **(19,366)** |

Aşağıdakı cədvəllər 31 dekabr 2023-cü il tarixinə ehtimal olunan kredit zərəri üzrə ehtiyat ilə bağlı məlumat təqdim edir:

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ** | **2-ci mərhələ** | **3-cü mərhələ** | **Cəmi** |
| **1 yanvar 2023-cü il** | **-** | **-** | **-** | **-** |
| Tanınmış yeni aktiv | (816) | - | - | (816) |
| **31 dekabr 2023-cü il** | **(816)** | **-** | **-** | **(816)** |

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə müştərilərə verilmiş kreditlər Azərbaycan manatı ilə ifadə edilmişdir. 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin müştərilərə verilmiş kreditlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

**Kreditlərin ödəniş müddətləri**

Kredit portfelinin müddətləri haqqında məlumat 22 saylı Qeyddə verilmişdir. Burada hesabat tarixindən başlayaraq kreditlərin müqavilə üzrə qalan ödəniş müddətləri göstərilmişdir.

## 11. ƏMLAK VƏ AVADANLIQLAR

| | İstifadə hüququ olan aktivlər | Kompüter və digər avadanlıqlar | Mebel və qurğular | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| **1 yanvar 2023-cü il** | - | - | - | - |
| Əlavələr | - | 60,066 | 23,843 | 83,909 |
| **31 dekabr 2023-cü il** | **-** | **60,066** | **23,843** | **83,909** |
| Əlavələr | 170,110 | 24,311 | 10,081 | 204,502 |
| **31 dekabr 2024-cü il** | **170,110** | **84,377** | **33,924** | **288,411** |
| **Yığılmış amortizasiya** | | | | |
| **1 yanvar 2023-cü il** | - | - | - | - |
| Dövr üzrə tutulmalar | - | (1,146) | (135) | (1,281) |
| **31 dekabr 2023-cü il** | **-** | **(1,146)** | **(135)** | **(1,281)** |
| Dövr üzrə tutulmalar | (56,703) | (19,295) | (6,123) | (82,121) |
| **31 dekabr 2024-cü il** | **(56,703)** | **(20,441)** | **(6,258)** | **(83,402)** |
| **Xalis qalıq dəyəri** | | | | |
| **31 dekabr 2024-cü il** | **113,407** | **63,936** | **27,666** | **205,009** |
| **31 dekabr 2023-cü il** | **-** | **58,920** | **23,708** | **82,628** |

Cəmiyyət inzibati məqsədlər üçün istifadə olunan ofis ilə bağlı icarə müqaviləsi bağlamışdır. Rəhbərlik icarə müddətinin qiymətləndirilməsində əhəmiyyətli mülahizə tətbiq edir və icarə müddəti 3 il olaraq müəyyən olunmuşdur.

## 12. ƏMLAK, AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR ÜZRƏ AVANS ÖDƏNİŞLƏRİ

31 dekabr 2024-cü il tarixinə əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər üzrə avans ödənişlərinə avadanlıqların və kredit portfeli ilə bağlı mühasibat uçotu proqramlarının satın alınması üçün 42,623 AZN məbləğində avans ödənişləri (31 dekabr 2023-cü il: 8,996 AZN) daxildir.

## 13. TƏXİRƏ SALINMIŞ VERGİ AKTİVİ

Cəmiyyət cari mənfəət vergisi borcunu və aktiv və öhdəliklərlə bağlı vergi bazasını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının MHBS Mühasibat Uçotu Standartlarından fərqli olan qanuni vergi qaydalarına uyğun olaraq ölçür və uçota alır.

Müəyyən xərclərin vergiyə cəlb edilməməsi və müəyyən gəlirlərin vergi məqsədləri üçün vergiyə cəlb olunmayan kimi qiymətləndirilməsi səbəbindən Cəmiyyət müəyyən daimi vergi fərqlərinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin balans dəyəri ilə onların vergi hesabatındakı balans dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikası vergi qanunvericiliyi xüsusilə müxtəlif təfsir və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərəfindən vergi qanunvericiliyinin təfsiri vergi orqanlarından fərqlənə bildiyi üçün, əməliyyatlara vergi orqanları tərəfindən yoxlama tətbiq oluna bilər və nəticədə Cəmiyyət əlavə vergi, cərimə və faizlər ödəmək məcburiyyətində qala bilər, bu isə Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatına əsaslı təsir göstərə bilər.

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə müvəqqəti fərqlər aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Növbəti ilə keçirilmiş vergi zərəri | - | 158,420 |
| Müştərilərə verilmiş kreditlər | 19,366 | 816 |
| İcarə öhdəliyi | 121,091 | - |
| Digər öhdəliklər | 16,779 | 7,245 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **157,236** | **166,481** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| Əmlak və avadanlıqlar | (113,407) | - |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(113,407)** | **-** |
| **Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər** | **43,829** | **166,481** |
| **Xalis təxirə salınmış vergi aktivi, 20%** | **8,766** | **33,296** |

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərində başa çatmış illər üzrə vergi xərcləri və uçot mənfəəti arasında əlaqələr aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | 472,211 | (166,481) |
| Qanunvericilik ilə müəyyən edilmiş vergi dərəcəsi ilə (20%) hesablanan nəzəri vergi (tutulması)/gəliri | (94,442) | 33,296 |
| Müvəqqəti fərqlərin vergi təsiri | (543) | - |
| **Mənfəət vergisi (xərci)/gəliri** | **(94,985)** | **33,296** |
| Cari mənfəət vergisi xərci | (70,455) | - |
| Təxirə salınmış vergi aktivində dəyişiklik | (24,530) | 33,296 |
| **Mənfəət vergisi (xərci)/gəliri** | **(94,985)** | **33,296** |

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Təxirə salınmış vergi aktivi** | | |
| **Növbəti ilə keçirilmiş qalıq** | **33,296** | **-** |
| Mənfəət və zərər hesablarında (tutulan)/əks etdirilən dövr üzrə təxirə salınmış vergi aktivində dəyişiklik | (24,530) | 33,296 |
| **Növbəti ilə keçirilmiş qalıq** | **8,766** | **33,296** |

## 14. BORC ALINMIŞ VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Borc alınmış vəsaitlər (cari) | 2,009,300 | - |
| Borc alınmış vəsaitlər (uzunmüddətli) | 1,423,537 | - |
| **Cəmi borc alınmış vəsaitlər** | **3,432,837** | **-** |

| Kreditor | Valyuta | Son ödəmə tarixi | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| "PASHA Bank" ASC | AZN | 14 noyabr 2025-ci il | 1,000,459 |
| "PASHA Bank" ASC | AZN | 10 dekabr 2025-ci il | 1,002,975 |
| "Rabitə Bank" ASC | AZN | 1 oktyabr 2027-ci il | 1,429,403 |
| **Cəmi borc alınmış vəsaitlər** | | | **3,432,837** |

Maliyyə öhdəliklərinin ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin, maliyyələşdirmə fəaliyyətindəki nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıda göstərilmişdir:

| | 1 yanvar 2024-cü il tarixinə | Pul vəsaitləri-nin axını | Pul vəsaitləri-nin axını | Pul vəsaitləri-nin axını | Nağdsız dəyişikliklər | Yenidən təsnifat | 31 dekabr 2024-cü il tarixinə |
|---|---|---|---|---|---|---|---|
| | | *Borc alınmış vəsaitlər* | *Ödənilmiş əsas məbləğ* | *Ödənilmiş faiz* | *Faiz xərci* | | |
| Cari hissə | - | 4,986,995 | (1,588,911) | (50,885) | 85,638 | (1,423,537) | 2,009,300 |
| Uzunmüddətli hissə | - | - | - | - | - | 1,423,537 | 1,423,537 |
| **Cəmi** | **-** | **4,986,995** | **(1,588,911)** | **(50,885)** | **85,638** | **-** | **3,432,837** |

31 dekabr 2024-cü il tarixinə borc alınmış vəsaitlər AZN ilə ifadə olunmuşdur. 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin borc alınmış vəsaitlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 15. İCARƏ ÖHDƏLİYİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Cari hissə | 64,754 | - |
| Uzunmüddətli hissə | 56,337 | - |
| **Cəmi icarə öhdəlikləri** | **121,091** | **-** |

31 dekabr 2024-cü il tarixinə gələcək minimum icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

**Ödəniləcək minimum icarə ödənişləri**

| | 1 il ərzində | 1 ildən 5 ilədək | Cəmi |
|---|---|---|---|
| İcarə ödənişləri | 69,768 | 69,768 | 139,536 |
| Faiz xərcləri | (5,014) | (13,431) | (18,445) |
| **31 dekabr 2024-cü il tarixinə xalis cari dəyər** | **64,754** | **56,337** | **121,091** |

Maliyyə öhdəliklərinin ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin, maliyyələşdirmə fəaliyyətindəki nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıda göstərilmişdir:

| | 1 yanvar 2024-cü il tarixinə | Əlavələr | Pul vəsaitlərinin hərəkəti | Nağdsız dəyişikliklər | Yenidən təsnifat | 31 dekabr 2024-cü il tarixinə |
|---|---|---|---|---|---|---|
| | | | *Ödənilmiş əsas və faiz məbləği* | *Faiz xərci* | | |
| Cari hissə | - | 170,110 | (69,768) | 20,749 | (56,337) | 64,754 |
| Uzunmüddətli hissə | - | - | - | - | 56,337 | 56,337 |
| **Cəmi** | **-** | **170,110** | **(69,768)** | **20,749** | **-** | **121,091** |

31 dekabr 2024-cü il tarixinə icarə öhdəliyi Azərbaycan manatı ilə ifadə olunmuşdur. 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin icarə öhdəliyinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 16. ƏLAQƏLİ TƏRƏFƏ ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə əlaqəli tərəfə ödəniləcək vəsaitlərə səhmdardan alınmış 28,500 AZN məbləğində uzunmüddətli faizsiz borc alınmış vəsaitlər daxildir (1 yanvar 2023-cü il: sıfır).

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə əlaqəli tərəfə ödəniləcək vəsaitlər Azərbaycan manatı ilə ifadə olunmuşdur. 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin əlaqəli tərəfə ödəniləcək vəsaitlərin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 17. DİGƏR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Müxtəlif kreditorlar | 339,950 | 9,854 |
| **Cəmi maliyyə öhdəlikləri** | **339,950** | **9,854** |
| Ödəniləcək vergilər | 70,455 | - |
| İşçilər ilə əlaqədar ödəniləcək vəsaitlər | 34,343 | 7,245 |
| **Cəmi digər öhdəliklər** | **444,748** | **17,099** |

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə digər öhdəliklər Azərbaycan manatı ilə ifadə edilmişdir. 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin digər öhdəliklərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 18. NİZAMNAMƏ KAPİTALI

1 saylı Qeyddə göstərildiyi kimi, 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin 5,000,000 AZN məbləğində olan nizamnamə kapitalı nominal dəyəri hər səhm üzrə 1,000 AZN olan 5,000 səhmdən ibarət olmuşdur (1 yanvar 2023-cü il tarixinə 300,000 AZN məbləğində olan nizamnamə kapitalı nominal dəyəri hər səhm üzrə 1,000 AZN olan 300 səhmdən ibarət olmuşdur).

## 19. FAİZ GƏLİRİ

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri** | | |
| Müştərilərə verilmiş kreditlər | 1,728,824 | 270 |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış cəmi faiz gəliri** | **1,728,824** | **270** |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci** | | |
| Borc alınmış vəsaitlər | (85,638) | - |
| İcarə öhdəliyi | (20,749) | - |
| **Effektiv faiz metodundan istifadə etməklə cəmi faiz xərci** | **(106,387)** | **-** |
| **Xalis faiz gəliri** | **1,622,437** | **270** |

## 20. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əməkhaqqı və əlaqədar xərclər | 806,180 | 123,495 |
| Peşəkar haqlar | 170,443 | - |
| Köhnəlmə xərcləri | 82,121 | 1,281 |
| İcarə xərcləri | 28,979 | 29,408 |
| Bank komissiyası | 21,175 | 1,340 |
| Rabitə xərcləri | 15,374 | 4,152 |
| Ofis təchizatları | 6,356 | 2,408 |
| Digər xərclər | 39,693 | 3,851 |
| **Cəmi ümumi və inzibati xərclər** | **1,170,321** | **165,935** |

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülür. Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq bu maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının kommersiya və vergi qanunvericiliyi müxtəlif şərhlər və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, Cəmiyyətin vergi qanunvericiliyi üzrə şərhi vergi orqanlarının şərhindən fərqli ola biləcəyi ehtimalı əsasında, əməliyyatlar vergi orqanları tərəfindən yoxlanıla bilər və nəticə etibarilə, Cəmiyyətə əlavə vergilər, cərimələr və faizlər tətbiq oluna bilər.

Cəmiyyətin rəhbərliyi müvafiq qanunvericiliyin şərhinin düzgün olduğunu və Cəmiyyətin vergi, valyuta qanunvericiliyi və gömrük mövqeyinin dəyişməz olaraq qalacağına inanır. Müvafiq olaraq, 31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə potensial vergi öhdəlikləri ilə bağlı heç bir müddəa qeydə alınmamışdır.

## 22. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASI

**Korporativ idarəetmə strukturu**

Cəmiyyətin ali idarəedici orqanı Təsisçilərin Ümumi Yığıncağıdır, bu yığıncaq illik olaraq və ya fövqəladə hallarda çağırılır. Təsisçilərin Ümumi Yığıncağı Cəmiyyətin əməliyyatlarına dair strateji qərarlar qəbul edir.

Təsisçilərin Ümumi Yığıncağı Direktorlar Şurasını təyin edir. Direktorlar Şurası Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti təmin edir.

Azərbaycan qanunvericiliyi və Cəmiyyətin Nizamnaməsi Direktorlar Şurası və Direktor tərəfindən təsdiq olunan qərarların siyahısını müəyyən edir.

Cəmiyyətin ümumi fəaliyyətinə Cəmiyyətin Baş direktoru rəhbərlik edir. Cəmiyyətin Baş direktoru səhmdarın qərarlarının icrasına cavabdehdir.

**Daxili nəzarət siyasəti və prosedurları**

Baş direktor Cəmiyyətdə əməliyyatların həcminə və xarakterinə uyğun olan daxili nəzarət sistemlərinin işlənib hazırlanması, icrası və saxlanmasına görə məsuliyyət daşıyır.

Daxili nəzarət sistemlərinin məqsədi aşağıdakıları təmin etməkdir:

- risklərin düzgün və hərtərəfli qiymətləndirilməsi və idarə olunması;
- düzgün biznes, mühasibatlıq və maliyyə hesabatı funksiyaları, o cümlədən əməliyyatların düzgün təsdiqi, emalı və qeydə alınması;

- mühasibatlıq qeydlərinin, rəhbərlik məlumatının, normativ hesabatların tamlığı, dəqiqliyi və vaxtında hazırlanması;
- İT sistemlərinin etibarlılığı, məlumatlar və sistemlərin bütövlüyü və mühafizəsi;
- saxtakarlıq və ya qeyri-qanuni hərəkətlərin, o cümlədən aktivlərin mənimsənilməsinin aradan qaldırılması;
- qanun və qaydaların tələblərinə uyğunluq.

Rəhbərlik risklərin aşkarlanması və qiymətləndirilməsi, nəzarət sistemlərinin yaradılması və onların səmərəliliyinin yoxlanılmasına görə məsuliyyət daşıyır. Rəhbərlik Cəmiyyətin daxili nəzarət sistemlərinin səmərəliliyinə nəzarət edir və mütəmadi olaraq əlavə nəzarət sistemləri tətbiq edir, yaxud zəruri hesab olunduqda, mövcud nəzarət sistemlərinə düzəlişlər edir.

Cəmiyyətin daxili nəzarət sistemi aşağıdakı şəxslərdən ibarətdir:

- Baş direktor və Direktorlar Şurası;
- Baş mühasib;
- İnsan resursları funksiyası.

Müəyyən edilmiş standartlar, siyasətlər və prosedurlara uyğunluq üzrə məsul olan digər əməkdaşlar, bölmə və funksiyalar, o cümlədən:

- hüquqşünas – hüquqi və normativ tələblərə uyğunluq üzrə məsul olan əməkdaş;
- nəzarət öhdəliklərinə malik digər əməkdaşlar/bölmələr.

Rəhbərlik Cəmiyyətin risklərin idarə edilməsi və daxili nəzarət sistemləri, o cümlədən daxili audit funksiyası ilə əlaqədar ARMB-nin tələblərinə uyğun olduğunu və risklərin idarə edilməsi və daxili nəzarət sistemlərinin əməliyyatların həcmi, xarakteri və mürəkkəbliyinə müvafiq olduğunu hesab edir.

**Risklərin idarə edilməsi siyasəti və prosedurları**

Cəmiyyətin üzləşdiyi riskləri müəyyən etmək, təhlil etmək və idarə etmək, müvafiq risk limitlərini və nəzarəti müəyyən etmək, risk səviyyələrinə və limitlərə riayət olunmasına davamlı olaraq nəzarət etmək məqsədi daşıyan risklərin idarə edilməsi şöbəsi vardır.

Direktorlar Şurası risklərin idarə edilməsi çərçivəsində nəzarətə, əsas risklərin idarə edilməsinə nəzarətə, risklərin idarə edilməsi siyasətlərinə, o cümlədən, əhəmiyyətli dərəcədə böyük riskə məruz qalmanın təsdiqinə görə məsuliyyət daşıyır.

Baş direktor risklərin azaldılması üzrə tədbirlərin monitorinqi və həyata keçirilməsinə, Cəmiyyətin müəyyən edilmiş risk parametrləri daxilində fəaliyyət göstərməsinin təmin edilməsinə görə məsuliyyət daşıyır. O, həmçinin, ARMB-nin müəyyən etdiyi risk hədlərinə Cəmiyyətin əməl etməsinə nəzarət edir.

**Ehtimal olunan kredit zərəri (EOKZ) üzrə ölçülmələr – anlayışlar**

EOKZ, gələcək pul çatışmazlığının cari dəyərinin (kredit zərərlərinin orta çəkili dəyəri, verilmiş müddətə istifadə edilən müvafiq defolt riskləri ilə) ehtimal olunan təxminidir. EOKZ ölçüsü qərəzsizdir və bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin edilir.

Diskont dərəcəsi – hesabat tarixində ehtimal edilən zərərin indiki dəyərə endirilməsi üçün bir alətdir. Diskont dərəcəsi maliyyə aləti üçün effektiv faiz dərəcəsini (EFD) və ya onun təxmini uyğunlaşdırılmasını əks etdirir.

Ömürlük müddət – EOKZ-nin ölçülməsi üçün maksimal müddət. Sabit ödənişli lizinqlər üçün ömürlük müddət müqavilənin qalan müddətinə bərabərdir.

Ömürlük EOKZ – maliyyə alətinin qalan istifadə müddəti ərzində mümkün olan defolt hallarında baş verən zərərlər.

12 aylıq EOKZ – maliyyə alətləri üzrə defolt hallarının baş verməsi nəticəsində meydana çıxan EOKZ-ni əks etdirən EOKZ-lərin bir qismi, maliyyə alətinin qalan müqavilə müddəti ilə məhdudlaşdıran hesabat tarixindən 12 ay ərzində mümkündür.

Proqnozlaşdırılan məlumat – hər bir portfel seqmenti üçün kredit riskinə və gözlənilən kredit zərərlərinə təsir edən əsas makroiqtisadi dəyişiklikləri ehtiva edən məlumat. 9 saylı MHBS maddəsinə uyğun olaraq, EOKZ-nin qiymətləndirilməsində geniş konsepsiya, proqnozlaşdırılan məlumatları nəzərdən keçirməkdir.

Kredit Konvertasiya Əmsalı (KKƏ) – balansdankənar məbləğlərin müəyyən edilmiş müddətdə balans maddəsinə çevrilmə ehtimalı olduğunu göstərir. Bu, 12 aylıq və ya ömürlük dövr üçün hesablana bilər. Həyata keçirilən təhlil əsasında Cəmiyyət, 12 aylıq və ömürlük KKƏ-nin eyni olduğunu ehtimal edir.

Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşməyə uğramış aktivlər (SƏKD) ilkin tanınmada kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləridir.

Aşağı kredit riskli maliyyə aktivləri – xarici reytinq agentlikləri və ya müvafiq daxili reytinq tərəfindən investisiya dərəcəsi verilmiş aktivlər, Azərbaycan Respublikası tərəfindən buraxılmış və manatla irəli sürülmüş borc alətləri, Azərbaycan Respublikasına məxsus şirkətlərə manat ilə verilmiş kreditlər. Maliyyə aktivlərinin öhdəliyin 30 gündən çox olması halında ilkin tanınma tarixindən etibarən kredit riskinə əhəmiyyətli dərəcədə artdıqları ehtimalı təkzib edilməmişdir.

Defolt və kredit üzrə dəyərsizləşməyə məruz qalmış aktiv – defolt vəziyyətində olan kredit aşağıda göstərilən meyarlardan birinə və ya bir neçəsinə cavab verdikdə, "kredit üzrə dəyərsizləşməyə məruz qalmış" aktivin tərifi ilə tamamilə uyğunlaşdırılmış hesab olunur:

- borcalanın müqavilə şərtləri üzrə ödənişləri 90 gündən artıq gecikdirməsi;
- Kredit 6 aydan az müddət əvvəl restrukturizasiya olunmuşdur və müqavilə şərtlərinə uyğun olaraq ödənişlər 31-90 gündən çox gecikmişdir;
- Cəmiyyət borcalanın borcunu əhəmiyyətli zərər ilə satmağı düşünür (borcun əsas məbləğinin və hesablanmış faizlərin 5%-dən çoxu);
- Borcalanın xarici reytinqi Caa2-dən aşağıdır;
- Cəmiyyət əsas şablon üzrə defolt reytinqinə malik qrupda borcalanı təsnif etmişdir.

Kredit Riskində Əhəmiyyətli Artım (KRƏA) – KRƏA qiymətləndirməsi fərdi və portfel əsasında həyata keçirilir. AD və ya DMGVƏD-də hesablanmış fərdlərə verilmiş kreditlər üçün, KRƏA aşağıda göstərilən şərtlərin monitorinqi əsasında fərdi şəkildə qiymətləndirilir. KRƏA-nın müəyyənləşdirilməsi üçün istifadə edilən meyarlar Cəmiyyətin Risklərin idarə edilməsi şöbəsi tərəfindən uyğunluq üçün mütəmadi olaraq izlənilir və nəzərdən keçirilir.

Cəmiyyət maliyyə alətini aşağıda göstərilən kəmiyyət, keyfiyyət və ya dəstəkləyici meyarlardan birinin və ya bir neçəsinin yerinə yetirildiyi zaman KRƏA-ya uğraması kimi dəyərləndirir.

Hüquqi şəxslərə verilmiş kreditlər və hüquqi şəxslər tərəfindən buraxılmış istiqrazlar, banklararası əməliyyatlar və banklar tərəfindən buraxılan istiqrazlar üçün:

- 31-90 gündən artıq gecikdirilmiş;
- 6-30 gündən artıq gecikmiş və restrukturizasiya olunmuş;
- Monitorinqlər borcalanın maliyyə çətinlikləri olduğunu göstərir.

Fiziki şəxslərə verilmiş kreditlər üçün:

- 31-90 gün gecikdirilmiş;
- 6-30 gündən artıq gecikmiş və restrukturizasiya olunmuş;
- Yenidən maliyyələşdirilən kreditlər – borcalanın bütün kreditlərinin bir kreditdə təkrar maliyyələşdirildiyi xüsusi kredit növü;
- Problemli kreditlər departamenti tərəfindən kreditin nəzarət siyahısına daxil edilməsi.

KRƏA meyarlarına artıq cavab vermədiyi və bunun ən azı 6 ay davam etməsinə dair sübutlar olduqda, alət 1-ci Mərhələyə qaytarılır. Keyfiyyət göstəricisinə əsasən, risk 2-ci Mərhələyə köçürülmüşdürsə, Cəmiyyət göstəricinin mövcud olması və ya dəyişməsi dinamikasını izləyir.

**EOKZ-nin ölçülməsi – qiymətləndirmə üsullarının təsviri**

SƏKD olmayan maliyyə aktivləri üçün EOKZ-lər, ümumiyyətlə, ilkin tanınmadan sonra borcalanın kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmamasından asılı olaraq, iki müxtəlif vaxt dövründən birində defolt riski əsasında ölçülür. Bu yanaşma EOKZ-nin ölçülməsi üzrə üç mərhələli modeldə ümumiləşdirilə bilər:

- 1-ci Mərhələ: ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşməyə məruz qalmamış maliyyə aləti və onun kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdır; zərər üzrə ehtiyat 12 aylıq EOKZ-lərə əsaslanır.
- 2-ci Mərhələ: ilkin tanınmadan sonra KRƏA müəyyən edildiyi təqdirdə, maliyyə aləti 2-ci Mərhələyə köçürülmüş, lakin hələ kredit üzrə dəyərsizləşmiş hesab edilməmişdir; zərər üzrə ehtiyat ömürlük EOKZ-lərə əsaslanır.
- 3-cü Mərhələ: maliyyə aləti kredit üzrə dəyərsizləşmişsə, maliyyə aləti daha sonra 3-cü Mərhələyə köçürülür və zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.

SƏKD maliyyə aktivləri üçün EOKZ həmişə ömürlük ölçülür (3-cü Mərhələ), buna görə hesabat tarixində Cəmiyyət yalnız ömürlük ehtimal olunan kredit zərərlərindəki məcmu dəyişiklikləri tanıyır.

Cəmiyyət EOKZ ölçülməsi üçün üç ayrı yanaşma həyata keçirə bilər:

- Fərdi əsasda qiymətləndirmə;
- Portfel əsasında qiymətləndirmə: fərdi əsasda, lakin eyni kredit riski parametrləri ilə təxmin edilən daxili reytinq (məsələn DE, DZYZ) eyni kredit riski reytinqi və kredit portfelinin həmcins seqmentləri üzrə EOKZ hesablamaları zamanı tətbiq edilir;
- Xarici reytinqə əsaslanan qiymətləndirmə.

Cəmiyyət hüquqi şəxslərə verilmiş kreditlərin aşağıdakı növləri üzrə fərdi əsasda qiymətləndirmə aparır: vahid kredit riski xüsusiyyətlərinə malik kreditlər, fərdi əhəmiyyətli kreditlər və dəyərsizləşmiş kreditlər.

Fərdi əsasda qiymətləndirmə prinsipləri – fərdi əsasda EOKZ qiymətləndirmələri hər bir nəticənin ehtimalına qarşı müxtəlif mümkün nəticələrə görə kredit zərərləri üzrə təxminlərin ölçülməsi ilə həyata keçirilir. Cəmiyyət hər bir kredit üçün ən azı iki mümkün nəticəni müəyyən edir. Bunlardan biri bu ssenari ehtimalına baxmayaraq kredit zərərinə səbəb olur. Fərdi qiymətləndirmə əsasən Problemli kreditlərlə iş departamentinin mütəxəssislərinin rəyi əsasında aparılır. Mütəxəssislərin hesabatları qalıqlar və faktiki zərərlər arasındakı fərqi azaltmaq üçün müntəzəm olaraq yoxlanılır. Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin birləşməsidir: DVRMQ, DE və DZYZ (parametrlərin tərifləri yuxarıda göstərilmişdir). EOKZ hesablanması üzrə ümumi yanaşma aşağıda göstərilmişdir. Bu yanaşma portfel əsasında qiymətləndirilmiş məhsullar üzrə və Cəmiyyətin həmin məhsul üzrə borcalanının xüsusi məlumatı əsasında kredit riski reytinqi qiymətləndirməsi olan məhsul üzrə tətbiq oluna bilər.

EOKZ növbəti 12 ay və ya ömürlük alətlər üzrə kredit riski parametrlərinin (DVRMQ, DE və DZYZ) proqnozlaşdırılması ilə müəyyən edilir. Bu üç komponent birlikdə artırılır və qalıq ehtimalı (yəni əvvəlki dövrdə ödənilmiş və ya defolt vəziyyətində riskə məruz qalmışdır) üzrə düzəliş edilir. Kredit riski parametrlərinin hesablanmasının qısa olaraq əsasları aşağıdakılardır.

DVRMQ-lər gözlənilən ödəniş profilinə əsasən müəyyən edilir ki, bu da məhsul növünə görə dəyişir:

- məhsulların və birməbləğli ödəmə kreditlərinin amortizasiyası üçün DVRMQ, borcalanın 12 aylıq və ya ömürlük əsasda borclu olduğu müqavilə ödəmələrinə əsaslanır.
- məhsulların dövriyyəsi üçün DVRMQ, defolt anına qalmış limitin gözlənən istifadəsini nəzərə alaraq, cari istifadə edilmiş qalığın alınması və kredit konversiyası əmsalının əlavə edilməsi yolu ilə proqnozlaşdırılır.

EOKZ-lərin hesablanması üçün DE-nin iki növü istifadə edilir: 12 aylıq və ömürlük DE

- 12 aylıq DE-lər – Defoltun növbəti 12 ay ərzində (və ya maliyyə alətinin qalan ömrü 12 aydan az olduqda) baş verməsi ehtimalı. Bu amil 12 aylıq EOKZ-ləri hesablamaq üçün istifadə edilir. 12 aylıq DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.
- Ömürlük DE-lər – Defoltun maliyyə alətinin qalan ömrü üzrə təxmin edilən baş verməsi ehtimalı. Bu amil ömürlük EOKZ-ləri 2-ci Mərhələ riskləri üzrə hesablamaq üçün istifadə edilir. Ömürlük DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.

Ömürlük DE-ni hesablamaq üçün, Cəmiyyət 12 aylıq DE-lərin miqrasiya matrislərinə əsasən ekstrapolyasiya edilməsi və tarixi defolt məlumatına əsaslanan ömürlük DE-nin əyrilik əmsalı kimi seqment və məhsul növündən asılı olaraq müxtəlif statistik yanaşmalardan istifadə edir. Ömürlük DE hesablamaları üçün, Cəmiyyət tarixi defolt məlumatları və defolt məlumatların mövcud olmadığı uzun müddətlər üçün isə trendlərin ekstrapolyasiyasından istifadə edir.

DZYZ, defolt riski ilə bağlı olaraq Cəmiyyətin yarana bilən zərərlə bağlı gözləntisini əks etdirir. DZYZ, məhsul, mərhələ, girovun və ya digər bu kimi kredit təminatının mövcudluğuna görə fərqli nəticələr göstərir. 12 aylıq və ömürlük DZYZ-lər, defolt hadisəsindən sonra gözlənilən əldə ediləcək vəsaitlərə təsir edən amillər əsasında müəyyən edilir. DZYZ-nin ölçülməsinə yanaşma üç mümkün yanaşmaya bölünə bilər:

- girovun özəl xüsusiyyətlərinə əsasən DZYZ-nin ölçülməsi;
- bərpa statistikasına əsaslanaraq portfel əsasında DZYZ-nin hesablanması;
- fərqli amil və ssenarilərdən asılı olaraq fərdi qaydada müəyyən edilmiş DZYZ.

Cəmiyyətin əməliyyatları ilə əlaqədar olan əsas risklər əsasən aşağıdakılar ilə əlaqədardır:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

**Kredit riski**

Cəmiyyət kredit riskinə məruz qalır ki, bu da bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman digər tərəfin maliyyə zərərləri ilə üzləşməsi riskidir.

**Maksimum riskə məruz qalma**

Cəmiyyətin kredit riskinə maksimum məruz qalması əhəmiyyətli dərəcədə fərqlənir və fərdi və ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

**Coğrafi konsentrasiya**

Rəhbərlik, həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə risklərin Cəmiyyətin fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Cəmiyyətə Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimal həddə salmağa şərait yaradır.

31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə Cəmiyyətin maliyyə aktivləri və maliyyə öhdəliklərinin coğrafi konsentrasiyası müvafiq qeydlərdə açıqlanmışdır.

**Likvidlik riski**

Likvidlik riski maliyyə aktivləri və öhdəliklərinin ödəmə müddəti uyğun gəlmədikdə müəyyən olunan riskdir. Likvidlik riski Cəmiyyətin Maliyyə departamenti tərəfindən idarə olunur. Cəmiyyətin likvidliyin idarə olunması öhdəliklərin ödənilməsi üçün zəruri olan likvid aktivlərin səviyyəsinin qorunub saxlanılması; müxtəlif maliyyə mənbələrinə çıxışın qorunub saxlanılması; təəhhüd planlarının maliyyələşdirilməsinin qorunub saxlanılması və balans hesabatı likvidlik əmsalına nəzarət tələb edir.

Likvidlik riski üzrə təhlil aşağıdakı cədvəldə təqdim olunmuşdur:

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2024-cü il |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 160,999 | - | - | - | - | 160,999 |
| Müştərilərə verilmiş kreditlər | 1,184,177 | 2,408,075 | 4,329,832 | 919,598 | - | 8,841,682 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **1,345,176** | **2,408,075** | **4,329,832** | **919,598** | **-** | **9,002,681** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Borc alınmış vəsaitlər | 26,994 | 102,751 | 1,879,555 | 1,423,537 | - | 3,432,837 |
| İcarə öhdəliyi | 5,747 | 11,296 | 47,711 | 56,337 | - | 121,091 |
| Əlaqəli tərəfə ödəniləcək vəsaitlər | - | - | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 339,950 | - | - | - | - | 339,950 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **372,691** | **114,047** | **1,927,266** | **1,479,874** | **28,500** | **3,922,378** |
| Likvidlik boşluğu | 972,485 | 2,294,028 | 2,402,566 | (560,276) | (28,500) | |
| **Məcmu likvidlik boşluğu** | **972,485** | **3,266,513** | **5,669,079** | **5,108,803** | **5,080,303** | |

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,730,736 | - | - | - | - | 4,730,736 |
| Müştərilərə verilmiş kreditlər | 4,720 | 9,440 | 33,162 | 7,562 | - | 54,884 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **4,735,456** | **9,440** | **33,162** | **7,562** | **-** | **4,785,620** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Əlaqəli tərəfə ödəniləcək vəsaitlər | - | - | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 9,854 | - | - | - | - | 9,854 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **9,854** | **-** | **-** | **-** | **28,500** | **38,354** |
| Likvidlik boşluğu | 4,725,602 | 9,440 | 33,162 | 7,562 | (28,500) | |
| **Məcmu likvidlik boşluğu** | **4,725,602** | **4,735,042** | **4,768,204** | **4,775,766** | **4,747,266** | |

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 1 yanvar 2023-cü il |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 300,000 | - | - | - | - | 300,000 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **300,000** | **-** | **-** | **-** | **-** | **300,000** |
| Likvidlik boşluğu | 300,000 | - | - | - | - | |
| **Məcmu likvidlik boşluğu** | **300,000** | **300,000** | **300,000** | **300,000** | **300,000** | |

Likvidlik riskinin əlavə təhlili aşağıdakı cədvəllərdə 7 saylı MHBS əsasında təqdim olunmuşdur. Bu cədvəllərdə açıqlanan məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda qeyd olunan məbləğlərə uyğun gəlmir, belə ki, aşağıdakı cədvəldə effektiv faiz dərəcəsi metodu əsasında maliyyə vəziyyəti haqqında hesabatda tanınmayan cəmi müqavilə üzrə ödənişləri (o cümlədən faiz ödənişləri) təmsil edən maliyyə öhdəliklərinin ödəmə müddəti təqdim olunmuşdur.

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2024-cü il |
|---|---|---|---|---|---|---|
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Borc alınmış vəsaitlər | 67,337 | 182,846 | 2,149,775 | 1,809,274 | - | 4,209,232 |
| İcarə öhdəliyi | 5,814 | 11,628 | 52,326 | 69,768 | - | 139,536 |
| Əlaqəli tərəfə ödəniləcək vəsaitlər | - | - | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 339,950 | - | - | - | - | 339,950 |
| **Maliyyə öhdəlikləri ilə bağlı cəmi gələcək potensial ödənişlər** | **413,101** | **194,474** | **2,202,101** | **1,879,042** | **28,500** | **4,717,218** |

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|---|---|
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | - | - | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 9,854 | - | - | - | - | 9,854 |
| **Maliyyə öhdəlikləri ilə bağlı cəmi gələcək potensial ödənişlər** | **9,854** | **-** | **-** | **-** | **28,500** | **38,354** |

**Faiz dərəcəsi riski**

Cəmiyyət ədalətli dəyər faiz dərəcəsi riskini bazar şərtlərində mənfi dəyişikliklər nəticəsində yarana biləcək potensial zərərlərin dövri qiymətləndirməsi əsasında idarə edir. Cəmiyyətin İdarə Heyəti Cəmiyyətin cari maliyyə performansı üzrə monitorinq aparır, Cəmiyyətin ədalətli dəyər faiz dərəcələrində dəyişikliklərə həssaslığını və ədalətli dəyər faiz dərəcələrinin Cəmiyyətin gəlirliliyinə təsirini qiymətləndirir.

Aşağıdakı cədvəldə "risk dəyişənindəki əsaslı mümkün dəyişikliklər" əsasında müəyyən edilmiş faiz dərəcəsi riskinin həssaslıq təhlili təqdim olunur. Bu dəyişikliklərin səviyyəsi əsas rəhbərlik tərəfindən müəyyən edilir və əsas rəhbər heyətə təqdim edilən risk hesabatlarında əks olunur.

**Vergidən əvvəlki mənfəətə təsir:**

| | 31 dekabr 2024-cü il tarixinə | | 31 dekabr 2023-cü il tarixinə | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi –1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi –1% |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Müştərilərə verilmiş kreditlər | 88,417 | (88,417) | 549 | (549) |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc alınmış vəsaitlər | (34,328) | 34,328 | - | - |
| İcarə öhdəlikləri | (1,211) | 1,211 | - | - |
| **Vergidən əvvəlki mənfəətə xalis təsir** | **52,878** | **(52,878)** | **549** | **(549)** |

**Valyuta riski**

Valyuta riski xarici valyuta məzənnələrindəki dəyişikliklər səbəbindən maliyyə alətinin dəyərinin fərqli olacağı riskdir. Cəmiyyət maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti üzrə qüvvədə olan xarici valyuta məzənnəsi dərəcələrində dalğalanmaların təsirinə məruz qalır.

31 dekabr 2024-cü il, 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə Cəmiyyətin maliyyə aktivləri və öhdəlikləri ilə əlaqədar valyuta riskləri müvafiq qeydlərdə açıqlanmışdır.

## 23. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maliyyə alətinin maraqlı tərəflər arasında cari əməliyyatda mübadilə edilə biləcəyi məbləğdir və aktiv kotirovka edilmiş bazar qiyməti ilə ən yaxşı şəkildə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən onun fəaliyyət göstərdiyi mövcud bazar məlumatlarından və müvafiq qiymətləndirmə metodologiyalarından istifadə etməklə müəyyən edilmişdir. Bununla belə, təxmin edilən ədalətli dəyəri müəyyən etmək məqsədilə bazar məlumatlarını şərh etmək üçün mütləq mühakimə tələb olunur. Azərbaycan Respublikası inkişaf etməkdə olan bazarın bəzi xüsusiyyətlərini nümayiş etdirməkdə davam edir və iqtisadi şərtlər maliyyə bazarlarında fəaliyyətin həcmini məhdudlaşdırmağa davam edir. Bazar kotirovkaları köhnəlmiş ola və ya çətin satış əməliyyatlarını əks etdirə, buna görə də, maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərinin qiymətləndirilməsində bütün mövcud bazar məlumatlarından istifadə edir.

31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyər və ya amortizasiya olunmuş dəyərdə tanınan maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2024-cü il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 160,999 | 160,999 |
| Müştərilərə verilmiş kreditlər | 8,841,682 | 8,841,682 |
| Borc alınmış vəsaitlər | 3,432,837 | 3,432,837 |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 339,950 | 339,950 |

31 dekabr 2023-cü il tarixinə maliyyə hesabatlarında ilkin dəyər və ya amortizasiya olunmuş dəyərdə tanınan maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2023-cü il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,730,736 | 4,730,736 |
| Müştərilərə verilmiş kreditlər | 54,884 | 54,884 |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 9,854 | 9,854 |

1 yanvar 2023-cü il tarixinə ilkin maliyyə hesabatlarında ilkin dəyər və ya amortizasiya olunmuş dəyərdə tanınan maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri aşağıdakı kimi olmuşdur:

| | **1 yanvar 2023-cü il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 300,000 | 300,000 |

Aşağıdakı cədvəllər ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edir və onların hər birinin 31 dekabr 2024-cü il tarixinə ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi ilə təhlil edir:

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2024-cü il | 160,999 | - | - | 160,999 |
| Müştərilərə verilmiş kreditlər | 31 dekabr 2024-cü il | - | - | 8,841,682 | 8,841,682 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2024-cü il | - | - | 3,432,837 | 3,432,837 |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | 31 dekabr 2024-cü il | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 31 dekabr 2024-cü il | - | - | 339,950 | 339,950 |

Aşağıdakı cədvəllər ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edir və onların hər birinin 31dekabr 2023-cü il tarixinə ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi ilə təhlil edir:

| | | **Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2023-cü il | 4,730,736 | - | - | 4,730,736 |
| Müştərilərə verilmiş kreditlər | 31 dekabr 2023-cü il | - | - | 54,884 | 54,884 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | 31 dekabr 2023-cü il | - | - | 28,500 | 28,500 |
| Digər öhdəliklər | 31 dekabr 2023-cü il | - | - | 9,854 | 9,854 |

Aşağıdakı cədvəllər ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edir və onların hər birinin 1 yanvar 2023-cü il tarixinə ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi ilə təhlil edir:

| | | **Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1 yanvar 2023-cü il | 300,000 | - | - | 300,000 |